<"xml encoding="UTF-8?>

PEYĞƏMBƏRLİYİN DƏLİLLƏRİ

Allahın Məhəmmədin (s) Peyğəmbərliyinə şəhadəti

Quran

Lakin (Ya Rəsulum!) Allah sənə nazil etdiyi (Quran) ilə şəhadət verir ki, onu" (Quranı) Öz elmi ilə (Özünə xas olan elm və hikmətlə) nazil etmişdir. Mələklər də buna şahidlik edirlər. Təkcə Allahın şahid olması yetər!"[1]

Onu (islamı) bütün dinlərdən üstün etmək (onun bütün dinlərdən üstün olduğunu" göstərmək) üçün Öz Peyğəmbərini hidayət və haqq dinlə göndərən Odur. (Ya Rəsulum! Sənin peyğəmbərliyinin həqiqiliyinə) Allahın şahid olması kifayət edər!"[2]

De: "Mənimlə sizin aranızda təkcə Allahın (peyğəmbərliyimin həqiqiliyinə) şahid" olması kifayət edir. Şübhəsiz ki, O, bəndələrindən (bəndələrinin bütün əməllərindən) xəbərdardır, (onların gizlində və aşkarda nələr etdiyini) görəndir!"[3]

De: "Mənimlə sizin aranızda Allahın şahid olması kifayət edər. O, göylərdə və" yerdə nə olduğunu bilir. Batilə inanıb Allahı inkar edənlər, şübhəsiz ki, ziyana uğrayanlardır!"[4]

Yoxsa onlar: "(Muhəmməd) onu (özündən) uydurmuşdur!" - deyirlər. (Ya" Peyğəmbər!) De: "Əgər mən onu (özümdən) uydurmuşamsa, siz məni Allahdan (Allahın əzabından) qurtara bilməzsiniz. O sizin (Quran) barəsindəki dedi-qodularınızı daha yaxşı bilir. Mənimlə sizin aranızda Onun şahid olması kifayətdir.

[O, bağışlayandır, rəhm edəndir!"[5

De: "Şahidlik baxımından nə daha böyükdür? Mənimlə sizin aranızda Allah" şahiddir. Bu Quran mənə sizi və ona (gələcəkdə) yetişəcək kimsələri (qiyamətə qədər) xəbərdarlıq edib qorxutmağım üçün vəhy olundu. Məgər siz Allahla yanaşı başqa tanrılar olduğuna şahidlik edirsiniz?" De "O, tək bir Tanrıdır. Mən sizin Ona [şərik qoşduqlarınızdan (bütlərdən) tamamilə kənaram!"[6

Hədis

İmam Baqir (ə): Bu ayənin barəsində "De: "Şahidlik baxımından nə daha böyükdür? Mənimlə sizin aranızda Allah şahiddir. Bu Quran mənə sizi və ona (gələcəkdə) yetişəcək kimsələri (qiyamətə qədər) xəbərdarlıq edib qorxutmağım üçün vəhy olundu. Məgər siz Allahla yanaşı başqa tanrılar olduğuna şahidlik edirsiniz?" De "O, tək bir Tanrıdır. Mən sizin Ona şərik qoşduqlarınızdan (bütlərdən) tamamilə kənaram!"[7] belə buyurur: Peyğəmbər (s) Məkkədə öz dəvətini başlayan zaman Məkkə müşrikləri dedilər: Ey Məhəmməd! Allah səndən başqa birini tapa bilmədi ki, onu göndərsin? Biz sənin dediklərini təsdiq edən heç bir kimsə tapa bilmirik. Yəhudi və Nəsranilərdən sənin barəndə soruşduq; amma onlar dedilər ki, onların kitabında səndən heç bir yad edilməyibdir. Bəs elə bir kəsi .bizə göstər ki, sənin Allahın rəsulu olmağına şəhadət versin

[Allahın Peyğəmbəri buyurdu: "Allah mənimlə sizin aranızda şahiddir.[8

Əlmənaqib, ibn Şəhraşub: Məkkə əhalisi Peyğəmbərin (s) yanına gəlib dedilər: Allah səndən başqa bir rəsul tapmadı? Biz sənin sözlərini təsdiq edən heç bir kimsəni görmürük. Yəhudi və Nəsranilərdən də sənin barəndə soruşduq. Onlar öz kitablarında sənin adından heç bir əsər- əlamət olmadığını bildirdilər. Bəs bizə .sənin Alahın rəsulu olduğuna şəhadət verən bir şəxsi göstər

Bu zaman bu ayə nazil oldu: "De: "Şahidlik baxımından nə daha böyükdür? Mənimlə sizin aranızda Allah şahiddir. Bu Quran mənə sizi və ona (gələcəkdə)

yetişəcək kimsələri (qiyamətə qədər) xəbərdarlıq edib qorxutmağım üçün vəhy olundu. Məgər siz Allahla yanaşı başqa tanrılar olduğuna şahidlik edirsiniz?" De "O, tək bir Tanrıdır. Mən sizin Ona şərik qoşduqlarınızdan (bütlərdən) tamamilə kənaram!"[9]

Sonra yenədə Məkkəlilər dedilər:

Mütəal Allah Əbutalibin yetimindən başqasını tapa bilmədi ki, xalqa göndərsin?

Bu zaman bu ayə nazil oldu:

İçərilərindən bir adama: "İnsanları (Allahın əzabı ilə) qorxut, iman gətirənləri" (yaxşı əməllərinə görə) Rəbbi yanında gözəl mükafat gözlədiyi ilə müjdələ!" - deyə vəhy etməyimiz xalqa təəccüblü gəldimi ki, kafirlər: "Bu, həqiqətən, açıq-aşkar bir sehrbazdır!" dedilər.[10]

Nisa surəsi, ayə 166 - [1]

Fəth surəsi, ayə 28 - [2]

İsra surəsi, ayə 96 - [3]

Ənkəbut surəsi, ayə 52 - [4]

Əhqaf surəsi, ayə 8 - [5]

Ənam surəsi, ayə 19 - [6]

Ənam surəsi, ayə 19 - [7]

Təfsiri Qumi, cild 1, səh 195, Biharul- ənvar cild 18, səh 235, hədis 78 - [8]

Ənam surəsi, ayə 19 - [9]

Yunus surəsi, ayə 2 - [10]